# QANUN

№ 02 (364) / 2025

**BEYNƏLXALQ HÜQUQ**

**Allahverdiyev Əlövsət Vilayət oğlu**
TƏCAVÜZ MÜHARİBƏ CİNAYƏTLƏRİNİN ƏSASI KİMİ ........ 3

**Quluzadə Məhəmməd Fəxrəddin oğlu**
DÖVLƏTİN ƏMƏLİNİN HÜQUQAZİDDLİYİNİ İSTİSNA EDƏN HALLAR: FORS-MAJOR ........ 11

**Rəhimli Səftər Mikayıl oğlu**
BEYNƏLXALQ HÜQUQDA DÖVLƏTLƏRİN HÜQUQİ VARİSLİYİNİN ANLAYIŞI VƏ NORMATİV ƏSASLARI ........ 19

**Məmmədova Vəfa Yaqubəli qızı**
SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ TƏTBİQİ VƏ İNSAN HÜQUQLARI ... 28

**Абдуллазаде Рахиля Талех гызы**
АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ МЕЖДУНАРОДНОГО НАЛОГОВОГО ПРАВА ....... 34

**Əhmədov Fərid Ziyat oğlu**
MEDİASİYADA BARIŞIQ SAZİŞİNİN TƏTBİQİ VƏ İCRASI MEXANİZMLƏRİ ...... 40

**Həsənov Orxan Elbrus oğlu**
HASİLATIN PAY BÖLGÜSÜ SAZİŞİNİN ANLAYIŞI VƏ MAHİYYƏTİ ........ 44

**KONSTİTUSİYA HÜQUQU**

**Davudov Davud Rasim oğlu**
BƏZİ DÜNYA DÖVLƏTLƏRİNDƏ MÜLKİYYƏTİN KONSTİTUSİON HÜQUQİ NİZAMLANMASI ........ 48

**Babaxanova Mehriban Eldar qızı**
DÖVLƏT HAKİMİYYƏTİNİN LEGİTİMLİYİ VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN ROLU ........ 56

**Sadıqova Afaq Nadir qızı**
AZƏRBAYCAN RESPUBLİKASINDA MİQRASİYA PROSESLƏRİNİN BƏZİ İŞTİRAKÇILARININ İNZİBATİ MƏSULİYYƏTİ ........ 63

**Юсифова Эльвира Рауф гызы**
ЭТАПЫ КОНСТИТУЦИОННОГО ПРОИЗВОДСТВА: ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ И ПРАКТИЧЕСКИЕ ПОДХОДЫ ........ 68

**Zərbiyeva-Babazadə Fatimə Qədir qızı**
İXTİSASLAŞDIRILMIŞ MƏHKƏMƏLƏR: BEYNƏLXALQ TƏCRÜBƏ VƏ MƏHKƏMƏ-HÜQUQ İSLAHATLARI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCANDA YARADILMA İMKANLARI ........ 73

**MÜLKİ HÜQUQ**

**Dadaşov Emin Teyyub oğlu**
UKRAYNADA VƏ MOLDOVA RESPUBLİKASINDA DAŞINMAZ ƏMLAKIN HÜQUQİ REJİMİ ........ 79

**İrzayev Hüseyn Valeh oğlu**
YALAN VƏ UYDURMA ƏQDLƏRİN ETİBARSIZLIĞININ İRƏLİ SÜRÜLMƏSİ ÜÇÜN SUBYEKTİV HÜQUQ ........ 84

**Feyzullayeva Simuzər Rafiq qızı**
ŞƏXSİ QEYRİ-ƏMLAK HÜQUQLARININ MÜDAFİƏSİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ ........ 89

**AİLƏ HÜQUQU**

**Əzizova Səbinə Həmid qızı**
İSLAMDA NİKAHIN POZULMASI İNSTİTUTU ........ 94

**ƏMƏK HÜQUQU**

**Mustafayeva Ərəbiyyə Ənvər qızı**
İŞÇİLƏRİN ƏMƏK HÜQUQLARININ MÜDAFİƏSİNİN ANLAYIŞI ........ 102

**Rəhimov Azər Eldar oğlu**
İŞ YERİNDƏ TƏHLÜKƏSİZLİK, İŞÇİLƏRİN SAĞLAMLIĞI VƏ ƏMƏYİN MÜHAFİZƏSİ QAYDALARININ POZULMASI: ƏMƏK MÜBAHİSƏLƏRİNİN YARANMA ƏSASLARI KONTEKSTİNDƏ ........ 110

**ISSN 2218-9130**

**Təsisçi:**
**ŞAHBAZ XUDUOĞLU**

**Baş redaktor:**
**FƏXRƏDDİN AĞAZADƏ**

**Redaktor:**
**hüquq üzrə fəlsəfə doktoru, dosent**
**HİKMƏT EYVAZOV**

**Məsul redaktor və kompüter tərtibatı:**
**hüquqşünas**
**ANAR ƏLİ**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydə alınmışdır. Şəhadətnamə № 0104-P83-41555

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə Hüquq elmləri üzrə «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı»na daxil edilmişdir.

**BANK REKVİZİTLƏRİ:**
**Kapital Bank Bakı şəhər filialı**
**Kod: 200026; VÖEN: 9900003611**
**Müxbir hesabı: 0137010001944**
**S.W.I.F.T. BIK AIIBAZ 2X**
**Hesab № 11533050000**
**VÖEN: 1700145131**
**Valyuta hesabı: 333150100**

**Format: 60x84 1/8**
**Fiziki çap vərəqi: 22,5**
**Sifariş: (241) Tiraj: 500**
**Qiymıəti: 4 manat**

**Qanun Nəşriyyatının ünvanı:**
**Nəsimi rayonu, Tbilisi prospekti, 76**
**Tel.: 431-16-62; 431-38-18**

QANUN

**ÜNVAN:**
Azərbaycan Respublikası,
Bakı, AZ 1102, Nəsimi rayonu,
Tbilisi prospekti, 76
**Tel.:** 431-16-62; 431-38-18
**Faks:** 431-38-18
**E-mail:** qanunhuquqjurnali@gmail.com
**www:** qanunjurnali.az

**Mahmudov Emin Vidadi oğlu**
ƏMƏK MÜQAVİLƏSİNİN BAĞLANMASI ZAMANI HÜQUQİ TƏMİNATLAR VƏ ONLARIN ÜMUMİ XARAKTERİSTİKASI ................................ 121

**EKOLOGİYA HÜQUQU**
**Əlimusayev Emin Nazim oğlu**
EKOLOJİ QANUNVERİCİLİKDƏ STANDARTLAŞDIRMA VƏ SERTİFİKATLAŞDIRMA: MÖVCUD PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI ............ 129

**CİNAYƏT HÜQUQU VƏ KRİMİNOLOGİYA**
**Quliyev Cabir Məmməd oğlu**
**Mustafayev Asif Əsgər oğlu**
KİBERCİNAYƏTKARLIQ, KİBERCİNAYƏTKARLIĞA QARŞI MÜBARİZƏ VƏ BEYNƏLXALQ HÜQUQ ................................ 135

**Mürşüdov Rəşad Ramil oğlu**
EHTİYATSIZLIQDAN TÖRƏDİLƏN CİNAYƏTLƏRDƏ SUBYEKT VƏ ONUN FƏRDİ KRİMİNAL DAVRANIŞ MEXANİZMİ ƏSAS FAKTOR KİMİ ........... 146

**CİNAYƏT PROSESİ VƏ KRİMİNALİSTİKA**
**Гусейнова Кёнуль Эльман гызы**
**Ахундов Фуад Натиг оглу**
ОСНОВАНИЯ ПРИЗНАНИЯ ВЕЩЕСТВЕННЫХ ДОКАЗАТЕЛЬСТВ НЕДОПУСТИМЫМИ ................................ 151

**GƏNC HÜQUQŞÜNASIN TRİBUNASI**
**ƏMƏK HÜQUQU**
**Rəhimli Güləbəstə Elşən qızı**
XARİCİ ÖLKƏLƏRDƏ NATAMAM İŞ VAXTININ HÜQUQİ TƏNZİMLƏNMƏSİ .... 156

**CİNAYƏT HÜQUQU VƏ KRİMİNOLOGİYA**
**Həbibova Nərgiz İlqar qızı**
RƏQƏMSAL TEXNOLOGİYALARDAN İSTİFADƏ ETMƏKLƏ TÖRƏDİLƏN CİNAYƏTLƏRLƏ MÜBARİZƏNİN BƏZİ CİNAYƏT-HÜQUQİ VƏ KRİMİNOLOJİ MƏSƏLƏLƏRİ ................................ 162

**CİNAYƏT PROSESİ VƏ KRİMİNALİSTİKA**
**Маммадли Хумай Ниязи гызы**
ЗНАЧЕНИЕ КРИМИНАЛИСТИЧЕСКИХ ВЕРСИЙ ВО ВРЕМЯ ПЛАНИРОВАНИЯ РАССЛЕДОВАНИЯ ................................ 171

"QANUN" JURNALINA ELMİ MƏQALƏ TƏQDİM ETMƏK ÜÇÜN QOYULAN TƏLƏBLƏR ................................ 176

AZƏRBAYCAN RESPUBLİKASINDA DİSSERTASİYALARIN ƏSAS NƏTİCƏLƏRİNİN DƏRC OLUNMASI TÖVSİYƏ EDİLƏN DÖVRİ ELMİ NƏŞRLƏR QARŞISINDA QOYULAN TƏLƏBLƏR ................................ 179

QANUN

**«Qanun»** elmi hüquq jurnalı 8 yanvar 1992-ci il tarixindən etbarən hər ay mütəmadi nəşr edilməkdədir. Jurnalın əsas məqsədi elmi nəşr olaraq demokratik və hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, hüquq və qanunçuluğun təbliği, hüquq elminin inkişafı və vətəndaşların hüquqi maarifləndirilməsi işində yaxından iştirak etməkdir. Jurnalda tanınmış hüquqşünas alimlərin, doktorant və dissertantların, magistrantların, praktik hüquqşünasların, habelə müxtəlif sahələrdə çalışan mütəxəssis hüquqşünasların elmi və elmi-praktiki məqalələri dərc olunur.

**«Qanun» jurnalına «Qaya Mətbuat Yayımı» MMC (Tel.: 566-77-80), «Səma Mətbuat Yayımı» MMC (Tel.: 596-22-97; 5940959) və «Azərmətbuatyayımı» ASC (Tel.: 440-16-26; 440-27-85) şirkətləri vasitəsilə abunə yazıla bilərsiniz.**

**«Qanun»** elmi hüquq jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası rəyasət heyətinin 2010-cu il 30 aprel tarixli (protokol №10-R) qərarı ilə təsdiq olunmuş (2012-ci il 04 may tarixli (protokol №07-R), 2012-ci il 6 iyul tarixli (protokol №10-R), 2014-cü il 16 may tarixli (protokol №07-R) və 2015-ci il 13 mart tarixli (protokol №05-R) qərarları ilə əlavə və dəyişikliklər edilmişdir) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin Siyahısı"na daxil edilmişdir.

## REDAKSİYA HEYƏTİ:

**Rəhimov İlham Məmmədhəsən oğlu**
Hüquq üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar hüquqşünası

**Qasımov Alış Məmiş oğlu**
Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor

**Qəfərov Midhəd Seyidəhməd oğlu**
Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrasının professoru, hüquq üzrə elmlər doktoru

**Cəfərov Zahid İsa oğlu**
Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq üzrə elmlər doktoru

**Dəmirçiyeva Məhəbbət Dəyirman qızı**
Bakı Dövlət Universitetinin Mülkü hüquq kafedrasının professoru, hüquq üzrə elmlər doktoru

**Lyubimov Aleksey Pavloviç**
hüquq elmləri doktoru, professor, Rusiya Elmlər Akademiyası Rəyasət Heyəti yanında Elmi Şuranın süni intellekt metodologiyası üzrə sədr müavini

**Kurennoy Aleksandr Mixayloviç**
M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Əmək hüququ kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor, RF-in əməkdar hüquqşünası

**Zahidov Bəhram Saffan oğlu**
Hüquq üzrə elmlər doktoru, professor, Nyu-York Elmlər Akademiyasının üzvü

**Qurbanov Habil Surxay oğlu**
hüquq üzrə elmlər doktoru, professor, Elm və Təhsil Nazirliyinin Elmi təşkilatların birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri, Avropa Humanitar Elmlər Akademiyasının həqiqi üzvü

**Eyvazov Hikmət Qismət oğlu (redaktor)**
hüquq üzrə fəlsəfə doktoru, dosent

**Məmmədov Zahid Fərrux oğlu**
Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin direktoru, iqtisad üzrə elmlər doktoru, professor

**Skaçkova Qalina Semyonovna**
Özəl ali təhsil müəssisəsi "Hüquq İnstitutu"nun (Sankt-Peterburq) Mülki hüquq və prosesi kafedrasının professoru, hüquq elmləri doktoru

**İmanlı Məhəmməd Nağı oğlu**
hüquq üzrə elmlər doktoru, professor

**Tomaşevski Kiril Leonidoviç**
V.Q. Timiryasov adına Kazan İnnovasiya Universitetinin Hüquq fakültəsinin elmi işlər üzrə dekan müavini, mülki və sahibkarlıq hüququ kafedrasının professoru, hüquq elmləri doktoru

QANUN № 02 (364), 2025, s. 11-18

**Quluzadə Məhəmməd Fəxrəddin oğlu,**
Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri, hüquq üzrə fəlsəfə doktoru
Ünvan: AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti, 125
E-mail: info@lhri.az

**UOT 341.236**
**DOI: https://doi.org/10.30546/2218-9130.002.2025.0112**

# DÖVLƏTİN ƏMƏLİNİN HÜQUQAZİDDLİYİNİ İSTİSNA EDƏN HALLAR: FORS-MAJOR

***Açar sözlər:*** *dövlətlərin beynəlxalq məsuliyyəti, fors-major, qarşısıalınmaz qüvvə, beynəlxalq hüquq.*

***Ключевые слова:*** *международная ответственность государств, форс-мажор, непреодолимая сила, международное право.*

***Keywords****: international responsibility of states, force majeure, irresistible force, international law.*

## Giriş

Dövlət beynəlxalq hüququn subyekti kimi başqa dövlətlərlə bağladığı ikitərəfli və tərəfdar çıxdığı çoxtərəfli müqavilələrin müddəalarından irəli gələn öhdəliklərini icra etməyə borcludur. Bir qayda olaraq, dövlətin beynəlxalq müqavilə üzrə öhdəliyini yerinə yetirməməsi onun məsuliyyətinə səbəb olur. Lakin müqavilə öhdəliklərinin yerinə yetirilməməsi əməlin hüquqaziddliyini istisna edən hallara söykəndikdə dövlətin məsuliyyəti yaranmır.

"Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti haqqında" Maddələrin [8] V fəslində razılıq, özünümüdafiə, əks-tədbirlər, fors-major, bədbəxt hadisə və zəruri vəziyyət hüquqaziddliyi istisna edən hallar kimi nəzərdən keçirilir (maddələr 20-27). Həmin halların siyahısı tam şəkildə beynəlxalq hüquqda ümumqəbulolunmuş hesab edilir. Qeyd olunan hallar mənbəyindən (müqavilə, beynəlxalq adət norması və ya birtərəfli akt) asılı olmayaraq, bütün beynəlxalq öhdəliklərə tətbiq olunur.

Digər beş hal ilə müqayisədə fors-major halı müvafiq öhdəliyi yerinə yetirmək üçün fiziki imkanın olmaması ilə səciyyələnir [11, s. 12]. Hazırkı məqalədə əməlin hüquqaziddliyini istisna edən hal kimi məhz fors-majorun tətbiqi əsasları tədqiq ediləcək.

**"Fors-major" termininin anlayışı**

Həm daxili hüquq, həm də beynəlxalq hüquq ilə nizama salınan münasibətlərdə elə vəziyyət və hallar olur ki, onlar qarşısıalınmaz qüvvələrdən (lat. – *vis major*) yaranır. Bu cür hallar daxili hüququn müxtəlif sahələrini belə hadisələr zamanı hüquq subyektinin hüquq və vəzifələrini nəzərdə tutan normaları müəyyən etməyə sövq etmişdir. "*Quod alias non fuit licitum necessitas licitum facit"* (zərurət digər şəraitdə qanunsuz olanı qanuni edir) müddəasının hüququn ümumi prinsipi kimi beynəlxalq hüquq üçün də qüvvəsi vardır. Beynəlxalq hüquqda "fors-major" dedikdə qarşısıalınmaz qüvvənin və ya nəzarət altına alınmayan, qabaqcadan görünməyən hadisənin təsiri nəticəsində subyektin məcburən öz beynəlxalq öhdəliyinə zidd davranması başa düşülür.

Fors-major həm beynəlxalq adət hüququ, həm də dövlətlərin daxili qanunvericiliyində geniş tətbiq olunur. Məsələn, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 379.1.1, 552.2.2, 588.2, 813, 831.3, 847.1, 1042.4, 1108.1, 1111.2, 1131-ci maddələrində qarşısıalınmaz qüvvəyə öhdəliyin icra edilməməsi və ya lazımi qaydada icra edilməməsi ilə bağlı istinad edilir.

Hadisə o vaxt qabaqcadan görünməyən hesab olunur ki, pozulmuş öhdəliyi müəyyən edən müqavilə bağlanarkən onu görmək mümkün olmasın. Hadisənin "nəzarət altına alınmayan" olması onun fors-major haqqında bəyanat verən tərəfə şamil edilməyənliyi ilə səciyyələnir.

Hadisənin qarşısının alınmazlığı müqavilə üzrə öhdəliyin icrasını qeyri-mümkün etməlidir. Bu zaman icraya nail olmaq üçün alternativ tədbir mövcud olmamalıdır. Fors-majorun bəyan edilməsi öz-özlüyündə əməlin hüquqaziddliyini istisna etmir. Fors-majora istinad edən tərəf onun şərtlərinin mövcudluğunu sübut etməlidir. Müvəffəqiyyətli iddia hallarında ümumi beynəlxalq hüquqa müvafiq olaraq baş vermiş hadisə ilə əlaqədar meydana çıxan davranışın hüquqaziddliyi istisna olunur.

Fors-major beynəlxalq münasibətlərdə dövlətin əməlinin hüquqaziddliyini istisna edən hal olmasına baxmayaraq, beynəlxalq müqavilələrdə onun anlayışı müəyyən edilməmişdir [12]. Məsələn, beynəlxalq müqavilələrin bağlanılması, qüvvəyə minməsi və şərh edilməsini tənzimləyən "Müqavilələr hüququ haqqında" 1966-cı il Vyana Konvensiyasında "fors-major" termininin tərifi yoxdur.

Ənənəvi olaraq, fors-major və məcburiyyətlər Anglo-American ümumi hüququnda müqavilə öhdəliklərinin icrasından müdafiə kimi tanınmırdı. Belə ki, müqavilə öhdəlikləri heç bir istisnaya malik olmayan və qeyd-şərtsiz yerinə yetirilməli olan öhdəliklər kimi qəbul olunurdu [22]. Hazırda fors-major müddəaları müqavilələrin ümumi xüsusiyyətinə çevrilmişdir, bu müddəalar kommersiya arbitrajı sahəsində mütəmadi olaraq tətbiq edilir və beynəlxalq hüququn ümumi prinsipi kimi səciyyələnir [4]. Hesab olunur ki, fövqəladə hallar müqavilə öhdəliklərinin yerinə yetirilməsinə mane olan vəziyyətlərdirsə, eyni hallar dövlətin investisiya müqaviləsi üzrə məsuliyyətini də aradan qaldırmalıdır [5].

"Fors-major" anlayışına müntəzəm olaraq beynəlxalq tribunalların qərarlarında istinad olunmaqla, mübahisələrin həlli zamanı fors-major əməlinin hüquqaziddliyini istisna edən hal kimi tətbiq olunur. Beynəlxalq Hüquq Komissiyasının (BHK) hazırladığı "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı maddələr layihəsi rəsmi olaraq BMT-nin Baş Assambleyası tərəfindən (12 dekabr 2001-ci ildə 56/83 saylı qətnamə ilə) qəbul edilmişdir. Həmin layihədə "fors-major" ifadəsinə aşağıdakı tərif verilmişdir:

*"1. Dövlətin beynəlxalq öhdəliklərinə qeyri-müvafiq olan əməl fors-majorla, yəni qarşısıalınmaz qüvvə, yaxud həmin dövlətin nəzarəti altında olmayan qabaqcadan görünməyən hadisə ilə şərtlənirsə və həmin şəraitdə müvafiq öhdəliyin yerinə yetirilməsini maddi cəhətdən qeyri-mümkün edirsə, həmin əməlin hüquqaziddliyi istisna olunur.*

*2.1-ci bənd tətbiq olunmur, əgər:*

*a) fors-major hadisəsi ya bütövlükdə, ya da digər amillərlə birlikdə ona istinad edən dövlətin davranışı ilə əlaqədardırsa;*

*və ya*

*b) həmin dövlət bu cür vəziyyətin yaranması riskini öz üzərinə götürübsə" [8].*

Qeyd edək ki, "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı Maddələr beynəlxalq birlik, yəni dünya dövlətləri tərəfindən müqavilə kimi qəbul edilməyib və dövlətlər üçün məcburi hüquqi qüvvəyə malik deyildir. Bununla belə, BHK-nın beynəlxalq aləmdəki mövqeyi, onun hazırladığı sənədlərin yüksək keyfiyyəti və beynəlxalq məhkəmələr

tərəfindən həmin Maddələrə istinad olunması fors-majora verilən anlayışın birmənalı qəbul edilməsini təmin edir.

Beynəlxalq Ticarət Palatası (BTP) beynəlxalq ticarət müqavilələrində fors-majora dair "uzun forma" və "qısa forma"da fors-major müddəaları tərtib etmişdir. Onun verdiyi anlayışa görə:

*"Fors-major"dedikdə tərəfin müqavilə üzrə bir və ya bir neçə müqavilə öhdəliyini yerinə yetirməsinə mane olan və ya qarşısını alan hadisə və ya halın ("fors-major hadisəsi") baş verməsi başa düşülür, o şərtlə ki, maneə ilə rastlaşan tərəf ("təsirə məruz qalan tərəf") sübut etsin ki:*

*a) belə maneə onun ağlabatan nəzarətindən kənardadır;*

*b) müqavilənin bağlanması zamanı həmin maneə ağlabatan şəkildə proqnozlaşdırıla bilməzdi;*

*c) təsirə məruz qalan tərəfin maneənin təsirlərinin qarşısını ağlabatan şəkildə alması və ya aradan qaldırması mümkün deyildi" [7][1].*

Burada fors-major hadisələrinə həmçinin aşağıdakılar da aid edilmişdir: işğal (*invasion*), xarici düşmənlərin hərəkətləri (*acts of foreign animies*), geniş hərbi səfərbərlik (*extensive military mobilization*), hərbi və ya ələ keçirilmiş hakimiyyət (*military or usurped power*) və s. Eyni zamanda, BTP sadaladığı siyahıdakı əsasları azaltmaq və ya artırmaq səlahiyyətini tərəflərdə tanıyır. Bununla belə, belə məhdudiyyətlər üçün maksimal müddət kimi 120 gün müəyyən edilmişdir [7].

Xüsusi Hüququn Unifikasiyası üzrə Beynəlxalq İnstitut (UNDROİT) tərəfindən hazırlanmış "Beynəlxalq kommersiya müqavilələrinin prinsipləri"ndə "fors-major" anlayışı 7.1.7-ci maddədə aşağıdakı formada təsbit edilir:

*"Tərəflərdən birinin öz öhdəliklərini yerinə yetirməməsi o halda üzrlü sayılır ki, həmin tərəf icra etməmənin özündən asılı olmayan maneə ilə bağlı olduğunu və müqavilənin bağlanması zamanı maneənin nəzərə alınmasının ağlabatan əsaslarla mümkün olmadığını və ya nəticələrinin qarşısını almağın, yaxud aradan qaldırmağın mümkün olmadığını sübut etsin" [21].*

Bəzi hallarda fors-major hadisənin olması müqavilə öhdəliyinin ümumiyyətlə icra edilməməsinə gətirib çıxarsa da, əksər hallarda müqavilənin icrasında yalnız yubanmaların olması ilə nəticələnir.

**Beynəlxalq məhkəmələrin təcrübəsi**

Beynəlxalq təcrübədə öhdəliyin icra olunmamasının əsası kimi fors-major hallarına istinadın çoxsaylı nümunələrinə rast gəlinir. Bu cür hallar bir dövlətin hava gəmisinin xarab olması və ya iqlim şəraiti ilə əlaqədar digər dövlətin hava məkanına razılıq almadan daxil olması nümunəsində daha tez-tez baş verir. Analoji hallara gəmilərin ərazi dənizindən keçidi ilə əlaqədar da mütəmadi təsadüf edilir.

Beynəlxalq məhkəmələrin təcrübəsinə nəzər salsaq görərik ki, bəzi hallarda qiyamçıların əməli dövlətin əcnəbilərə vurulan zərərə görə məsuliyyətini istisna edən hal kimi qiymətləndirilir (1978-ci il üzrə illik hesabat). Lakin əksər hallarda məhkəmələr fors-major normasının mövcudluğunu etiraf etsələr də, onun həmin halda tətbiqini uyğun hesab etməmişlər. 1912-ci ildə Rusiyaya kompensasiya ödənilməsi işində arbitraj həmin normanın mövcudluğunu etiraf etdi, lakin borcun qaytarılmasının maddi cəhətdən mümkün olması əsasına görə normanın tətbiqini qeyri-mümkün hesab etdi [17].

Arbitrajın baxdığı "Reynboy Uorrior haqqında" işdə Fransa əməlin hüquqaziddliyini istisna edən hal kimi Xao adasına ezam edilmiş zabit-

[1] Orijinal mətndə: "Force Majeure" means the occurrence of an event or circumstance ("Force Majeure Event") that prevents or impedes a party from performing one or more of its contractual obligations under the contract, if and to the extent that the party affected by the impediment ("the Affected Party") proves: a) that such impediment is beyond its reasonable control; and b) that it could not reasonably have been foreseen at the time of the conclusion of the contract; and c) that the effects of the impediment could not reasonably have been avoided or overcome by the Affected Party.

lərin müalicədən sonra geri qaytarılmasından imtina kimi fors-majora istinad edirdi. Arbitraj öz qərarında müəyyən etdi ki: “Yeni Zelandiyada fors-majorun tətbiqi meyarları mütləq və maddi (real) cəhətdən qeyri-mümkün olduğundan, həmçinin oradakı şərait icranı daha çətin və ya əlavə yük qoyulması ilə şərtləndirdiyinə görə, bu cür halların fors-majora aid olmamasına istinadla həmin işdə tətbiq edilə bilməyəcəyini iddia etməkdə haqlıdır” [18].

“Serb və Braziliya borcları haqqında” iş üzrə qərarında Beynəlxalq Ədalət Mühakiməsinin Daimi Palatası fors-majoru hüququn ümumi prinsipi kimi tanıdı, lakin həmin işin hallarını nəzərə alaraq fors-majora istinadı əsassız hesab etdi [16].

Dövlət üsyan (*upraising*), qiyam (*revolt*), vətəndaş müharibəsi və ya beynəlxalq müharibə faktına və ya bu hadisələrin onun ərazisində zərərə səbəb olmasına görə *prima facie* məsuliyyət daşımır [14]. Üsyançılar hökumətin agentləri deyil və təbii məsuliyyət yoxdur. Bunu İran-ABŞ İddiaları Tribunalının məhkəmə təcrübəsi də təsdiqləyib [6].

“Liviyanın xarici investisiya şirkəti Burundi Respublikasına qarşı” iş üzrə arbitraj qərarında fors-majora istinad o əsasla rədd olundu ki, “güman edilən qeyri-mümkünlük qarşısıalınmaz qüvvə və ya Burundinin nəzarəti altında olmayan qabaqcadan görünməyən xarici hadisənin nəticəsi deyildi. Əsl həqiqətdə isə, qeyri-mümkünlük həmin dövlətin birtərəfli qərarının nəticəsi idi” [10]. Beləliklə, beynəlxalq təcrübə, o cümlədən məhkəmə təcrübəsi fors-major normasının mövcudluğunu etiraf etməklə, belə bir yanaşmanın tərəfdarıdır ki, həmin norma yalnız müstəsna hallarda, yəni öhdəliyin icrası mütləq və maddi (real) cəhətdən qeyri-mümkün olduğu zaman tətbiq olunmalıdır.

Qarışıq iddialar üzrə komissiyalar tez-tez üsyançıların hücumlarının qabaqcadan görünə bilməməsinə istinad edərək, əcnəbilərə vurulan ziyana görə ərazi dövlətinin məsuliyyətini inkar edirlər [13].

**Şərtlər**

Göründüyü kimi, fors-major vəziyyəti müəyyən şərtlərə cavab verməlidir. Əvvəla, müvafiq əməl qarşısıalınmaz qüvvə və ya həmin dövlətin nəzarəti altında olmayan qabaqcadan görünməyən hadisə ilə müəyyən olunmalıdır. İkincisi, öhdəliyin icrası maddi (real) cəhətdən qeyri-mümkün olmalıdır. “Qarşısıalınmaz qüvvə” – dövlətin ondan yan qaçmasının mümkün olmadığı və ya onun baş verməsinə mane ola bilmədiyi maneənin mövcudluğunu bildirir.

“Qabaqcadan görünməyən hadisə” – baş verməsini qabaqcadan görmək mümkün olmayan hadisəni və ya onun son dərəcə az ehtimal olunduğunu bildirir. Nəzərdən keçirilən hallarda öhdəliyi pozan tərəfin müvafiq hadisənin mümkünlüyünü diqqətə almasını, ağlabatan şəkildə gözləmənin mümkün olub-olmamasını müəyyən etməsi zəruridir. Əgər belə bir hadisəni qabaqcadan görmək mümkün idisə, onda öhdəliyi yerinə yetirməyən tərəfi bu cür hadisə baş verdikdə riski öz üzərinə götürmüş tərəf kimi nəzərdən keçirmək olar. Hadisəni qabaqcadan görmək imkanı öhdəliyin qəbul edildiyi an üçün qiymətləndirilir.

Tərəf öhdəliyin icra edilməməsinə səbəb olan hadisənin baş verməsini passiv şəkildə müşahidə etməməli, öhdəliyin yerinə yetirilməsi üçün sərəncamında olan bütün tədbirləri görməlidir.

Qarşısıalınmaz qüvvə və ya qabaqcadan görünməyən hadisə maddi (real) imkansızlıq vəziyyətinin səbəbi kimi çıxış etməlidir. Öhdəliyin icra olunmamasının maddi (real) imkansızlığı təbii hadisələr, məsələn, tufan hallarında hava gəmisinin xarici dövlətin ərazisində məcburi eniş etməsi ilə şərtlənə bilər. Səbəb insanların fəaliyyəti ilə də əlaqədar ola bilər, məsələn, üsyan nəticəsində dövlətin ərazisinin bir hissəsinin onun nəzarətindən çıxması. Fors-major vəziyyətinə qüvvə tətbiqi, bir dövlətin digərini məcbur

etməsi ilə bağlı hadisələr də aid edilə bilər. Öhdəliyin icra olunmasında, məsələn, siyasi və ya iqtisadi böhran nəticəsində vəziyyətin ağırlaşması kimi hallara fors-major şamil olunmur. Bu, müvafiq dövlətlərin etinasızlığı və ya fəaliyyətsizliyi nəticəsində yaranan hallara aiddir.

İstinad edən dövlətin özünün yaratdığı və ya onun tərəfindən uydurulmuş vəziyyətlər də fors-major halı hesab oluna bilməz.

"Müqavilələr hüququ haqqında" Vyana Konvensiyasının 62-ci maddəsinin 2-ci bəndinə müvafiq olaraq, "Müqavilənin icrasının mümkünsüzlüyü tərəfin ya həmin müqavilə üzrə öhdəliyini, ya da bu müqavilənin digər tərəfi qarşısındakı beynəlxalq öhdəliyini pozması nəticəsində yarandığı təqdirdə, həmin tərəf müqavilənin icrasının mümkünsüzlüyünə müqavilənin ləğv edilməsi, ondan çıxmaq və ya onun qüvvəsinin dayandırılmasına əsas kimi istinad edə bilməz".

İcranın qeyri-mümkünlüyü mütləq və nisbi ola bilər. Birinci halda yerinə yetirmə tamamilə qeyri-mümkün olur. İkinci halda isə yerinə yetirmə imkanları yalnız məhdudlaşır. Nisbi qeyri-mümkünlük zamanı müvafiq hadisə yalnız yüngülləşdirici hal kimi nəzərdən keçirilə bilər [24]. Yerinə yetirmənin qeyri-mümkünlüyü daimi və ya müvəqqəti ola bilər. Əgər qarşısıalınmaz qüvvənin təsiri dayanırsa, onda subyekt üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdə davam etməlidir.

"Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti haqqında" Maddələrin 23-cü maddəsinin 2(b) bəndində nəzərdə tutulan vəziyyət ya dövlətin qabaqcadan fors-major hadisəsi ilə bağlı riski öz üzərinə götürməsi, ya davranışı, ya da birtərəfli aktı ilə əlaqədar olur. Bunun daha geniş yayılmış üsulu müvafiq sazişdir. Riskin öz üzərinə götürüldüyü bütün hallarda bu, ikimənalı olmamalı və hansı tərəf qarşısında öhdəlik götürülübsə, ona aid olmalıdır. Dövlət müəyyən risklə bağlı məsuliyyəti öz üzərinə götürdükdən sonra fors-majora istinad edə bilməz.

**Əlamətlər**

Fors-major aşağıdakı əlamətlərə malikdir:

- fors-major davranışının mənbəyi dövlətin yan keçə bilmədiyi və ya özünün vasitələri ilə qarşısını ala bilmədiyi qarşısıalınmaz qüvvə və ya qabaqcadan görünməyən hadisədir;
- dövlətin vəziyyətə nəzarət etməsinin qeyri-mümkünlüyü;
- fors-majorun dövlətin öz öhdəliyini maddi cəhətdən reallaşdıra bilməməsi ilə səbəb və nəticə əlaqəsində olması.

Fors-major və qabaqcadan görünməyən hal üçün böyük dərəcədə müvafiq davranışın qabaqcadan düşünülmüş, yəni qəsdlə edilməsi xarakterik deyildir. Əks halda dövlət hüquqaziddliyi ləğv etmək üçün tez-tez və əsassız olaraq buna müraciət edərdi [2]. Fəaliyyətin xaricdən məcburiyyət nəticəsində (fors-major, yaxud adətən qabaqcadan görünməyən qüvvənin yaratdığı xarici hadisə nəticəsində) baş verməsi fors-major üçün daha xarakterik hesab olunur.

Məcburiyyətin xaricdən olması sübut edildiyi hallarda beynəlxalq humanitar hüququn pozuntusunun hüquqaziddliyinin fors-major hal kimi istisnası mümkündür. Buna klassik misal olaraq hərbi qulluqçunun güllələnmə qorxusu altında əmri yerinə yetirərək beynəlxalq humanitar hüquq normasını pozmasını göstərmək olar. Rexlin (Roechling) işində Almaniyanın işğal etdiyi Fransa ərazisində Raştada şəhər ümumi instansiya məhkəməsi bildirdi ki:

*"Əksər hüquq sistemləri insan müdaxiləsindən asılı olmayaraq yaranan, sərəncamında başqa vasitələr olmadan ciddi və bərpası mümkün olmayan zərərin qarşısını almaq üçün bu və ya digər şəxsin qadağan edilmiş və ya şübhə doğuran hərəkətlərə yol verdiyi zərurət və ya fövqəl qüvvənin təsirindən qaynaqlanan halları tanımaqda davam edir"[2, s. 702-703].*

E.David qeyd edir ki, burada Məhkəmənin "zərurət vəziyyəti"ni göstərməsinə baxmayaraq, aydındır ki, əslində, o, qarşısıalınmaz məcburiyyəti və ya fors-majoru nəzərdə tutur [2].

Tərəfin fors-majordan irəli gələn icra etməməni minimallaşdırmaq öhdəliyi var. Tərəf öz öhdəliklərini yerinə yetirməməsinə görə məsuliyyətdən azad olmaq üçün aşağıdakıları sübut etməlidir: 1-ci bənddə göstərilən meyarlara cavab verən fors-major hallarının mövcudluğunu və müddətini; fors-major halları ilə öhdəliklərin icrasının mümkünsüzlüyü və ya gecikdirilməsi arasında birbaşa səbəb-nəticə əlaqəsinin mövcudluğunu; tərəfin fors-major hallarının yaranmasına səbəb olmamasını və tərəfin öz səhlənkarlığının fors-major hallarının baş verməsinə gətirib çıxarmamasını; mümkün risklərin qarşısını almaq (minimallaşdırmaq) üçün tərəflərin əsaslı şəkildə gözlənilən tədbirləri vicdanla görməsini [1]. Öhdəliyi yerinə yetirməyən tərəf qarşı tərəfə fors-major halların baş verməsi və bu halların öhdəliyi yerinə yetirmək qabiliyyətinə təsiri barədə məlumat verməlidir. Bildirişdə öhdəlikləri yerinə yetirməyən tərəf baş vermiş fors-major halların bütün xüsusiyyətlərini göstərməli və mümkün risklərin qarşısının alınması (minimallaşdırılması) üçün görülən tədbirlər barədə məlumat verməlidir [1].

Fors-major adətən iki əsas qrupa bölünür: a) təbiət hadisələri (zəlzələ, sel, yanğın və s.); b) siyasi və xüsusi hadisələr (terrorizm, iğtişaş, müharibə, tətil, nüvə və ya kimyəvi çirklənmə, ictimai infrastrukturun çökməsi və s.) [23]. Oraa etiraf edir ki, "fors-majora ən çox uyğun gələn təbii fəlakətlərdir" [15].

Digər tərəfdən və BHK-ya görə, fors-major hallara hətta lazımi araşdırma vasitəsilə (*due diligence*) dövlətin nəzarət etmək səlahiyyəti olmayan sosial və iqtisadi şərtlər də daxil ola bilər [3]. Bu o deməkdir ki, dövlət lazımi araşdırma standartına (*due diligence*) uyğun olaraq hələ də qayğı öhdəliyi ilə yüklənir və əgər o, göstərilən qayğını təklif etməyibsə, o zaman fors-major iddiasının baş tutmaması ehtimalı var [19]. Bu baxımdan, hər hansı bir işin faktlarından asılı olmayaraq, üsyançı hərəkatın miqyası və xarakteri sözügedən investorun müdafiəsinin təmin edilməsi istiqamətində mühüm amildir [20].

Fors-major halı mürəkkəb vəziyyətdən (*distress*) (maddə 24) və ya zərurətdən (maddə 25) fərqlənir, çünki dövlətin beynəlxalq aləmdə qeyri-qanuni davranış kimi sayılmalı olan davranışı könüllü deyil və ya ən azı heç bir azad seçim elementini ehtiva etmir [9].

Fors-major hallara səbəb olan icraatın əhəmiyyətli dərəcədə qeyri-mümkünlüyü təbii və ya fiziki hadisə (məsələn, dövlət təyyarəsini başqa dövlətin ərazisinə yönəldə bilən hava şəraitinin gərginliyi, zəlzələlər, daşqınlar və ya quraqlıq) və ya insan müdaxiləsi (məsələn, üçüncü dövlət tərəfindən həyata keçirilən hərbi əməliyyatların gedişi zamanı qiyam və ya ərazinin dağıdılması nəticəsində dövlət ərazisinin bir hissəsi üzərində idarəetmənin itirilməsi) ilə bağlı ola bilər. Dövlətə qarşı zor tətbiq edilməsi ilə bağlı bəzi təsir (*duress*) və ya məcburetmə (*coertion*) halları 23-cü maddənin müxtəlif tələblərinə cavab verərsə, bu, həm də fors-major halları sayıla bilər. Xüsusilə, vəziyyət qarşısıalınmaz olmalıdır ki, müvafiq dövlətin onun təsirindən xilası üçün real imkanları olmasın.

Fors-major, məsələn, hansısa siyasi və ya iqtisadi böhran səbəbindən öhdəliyin icrasının çətinləşdiyi halları əhatə etmir [9, s. 76]. Lakin fiziki imkansızlıq halları əhatə edilir, məsələn, iqlim şəraiti ilə əlaqədar hava gəmisinin zədələnməsi və ya idarəetməni itirməsi səbəbindən dövlət hava gəmisi digər dövlətin icazəsi olmadan onun hava məkanına daxil olmaq məcburiyyətində qaldıqda. Belə hallarda qaydalara uyğun olmayan davranışın (*wrongfulness*) qarşısının alınması prinsipi qəbul edilmişdir [9, s. 77].

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Критерии, основанные на международно-правовых актах, Available at: https://sudsng.org/download_files/publication/2015/force_majeure2.pdf.

2. Eric David. Principles of the Law of Armed Conflicts, ICRC, Moscow, 2011, p. 702.

3. Gould Marketing, Inc. v. Ministry of Defence of the Islamic Republic of Iran, Iran-U.S. C.T.R., Vol. 6, p. 152 (1984).

4. Iran-US Claims Tribunal. Anaconda-Iran Ltd v. Iran, 13 Iran-US CTR 1986, §43; Mobil Oil Iran Inc. v. Iran, 16 Iran-US CTR 1987, §117; European Court of Justice: Denkavit Belgie NV v. Belgium, 1987, Case 145/85, ECR 565; Commission v. Italy, 1985, Case 101/84, ECR 2629; G.H. Aldrich, The Jurisprudence of the Iran-US Claims Tribunal, Clarendon Press, 1996, pp. 306-320.

5. Iran-US Claims Tribunal. Gould Marketing Inc. v. Iran, 1983, 3 Iran-US CLT 147, p. 152; ICSID: SGS Société Générale de Surveillance S.A v. Philippines, 2004, ARB/02/6, §154, p. 465.

6. Iran-US Claims Tribunal. Sylvania Technical Systems, Inc. v. Iran, 1985, 8 Iran-US CTR 298, p. 310; Starrett Housing Corp. v. Iran, 1983, 16 Iran-US CLT 112, §257; Mobil Oil Case, §114.

7. International Chamber of Commerce. ICC Force Majeure and Hardship Clauses, 2020. Available at: https://iccwbo.org/wp-content/uploads/sites/3/2020/03/icc-forcemajeure-hardship-clauses-march2020.pdf.

8. International Law Commission. Responsibility of States for Internationally Wrongful Acts, 2001. Available at: https://legal.un.org/ilc/texts/instruments/english/draft_articles/9_6_2001.pdf.

9. International Law Commission. Report of the International Law Commission on the Work of Its Fifty-Third Session, Draft Articles on Responsibility of States for Internationally Wrongful Acts, with Commentaries, 2001, p. 76.

10. International Law Reports. ILR, Vol. 96, 1994, pp. 317-318.

11. Kyoji Kawasaki. «A Brief Note On The Legal Effects Of Jus Cogens In International Law». Hitotsubashi Journal of Law and Politics, 34 (2006): p.12.

12. Legal Response Initiative. LULUCF and Force Majeure. Available at: https://legalresponse.org/legaladvice/lulucf-and-force-majeure/.

13. Moore. History and Digest of the International Arbitrations to Which the United States Has Been a Party, Vol. IV, p. 4042 (1873); Wipperman Case in History and Digest, Vol. III, p. 3039.

14. Morocco Claims Case, R.I.A.A., Vol. II, p. 642.

15. Oraà. Case Study, 1992, p. 220.

16. Permanent Court of International Justice. PCIJ Reports, 1929, Ser. A, No. 20, pp. 33-40; No. 21, p. 120.

17. R.I.A.A. Reports of International Arbitral Awards, Vol. XI, 1912, p. 443.

18. R.I.A.A. Reports of International Arbitral Awards, Vol. XX, 1990, p. 253.

19. Sambiaggio Case, UNRIAA, Vol. X (Sales No. 60.V.4), pp. 50, 509, 511 (1904); Fischbach and Friedreich Case, p. 397-398; Home Frontier and Missionary Society of the United Brethren in Christ (USA v. UK), (1920), 6 RIAA 42, p. 44.

20. Solís Case, UNRIAA, Vol. IV (Sales No. 1951.V.1), p. 362.

21. UNIDROIT. Unidroit Principles 1994, Available at: https://www.unidroit.org/wp-content/uploads/2021/06/Unidroit-Principles-1994-English-i.pdf.

22. Vasiliki Karzi. The Protection of Foreign Investment During Armed Conflict: The Libya War. Master's Thesis, Leiden, 2012.

23. World Bank. Force Majeure Clauses Checklist and Sample Wording, 2008, p. 3.

24. Y.I.L.C. 1961, Vol. II, p. 48.

**Гулузаде Магомед Фахраддин оглу**

## СЛУЧАИ, ИСКЛЮЧАЮЩИЕ ПРОТИВОПРАВНОСТЬ ДЕЙСТВИЙ ГОСУДАРСТВА: ФОРС-МАЖОР

### РЕЗЮМЕ

В соответствии с принципом международного права «pacta sunt servanda» государство должно выполнять свои обязательства по международным договорам. Как правило, неисполнение этих обязательств влечет за собой ответственность.

Статьи «Об ответственности государств за международно-противоправные деяния» рассматривают согласие, самооборону, контрмеры, форс-мажор, бедствие и состояние необходимость как обстоятельства, исключающие противоправность. Перечень этих случаев считается общепринятым в международном праве. В статье подробно анализируется понятие непреодолимой силы как обстоятельства, исключающего противоправность действий государства, ее источники в международном праве, пределы применения, условия, основные элементы, международный опыт в этой области и другие вопросы.

**Guluzade Mahammad Fakhraddin**

## CASES EXCLUDING THE WRONGFULNESS OF THE STATE'S ACTION: FORCE MAJEURE

### SUMMARY

In accordance with the principle of international law "pacta sunt servanda", a state must fulfill its obligations under international treaties. As a rule, failure to fulfill these obligations entails responsibility.

The Articles "On the Responsibility of States for Internationally Wrongful Acts" consider consent, self-defense, countermeasures, force majeure, distress and necessity as circumstances excluding wrongfulness. The full list of these circumstances is considered universally accepted in international law. The article analyzes in detail the concept of force majeure as a circumstance excluding the wrongfulness of a state's act, its sources in international law, limits of application, conditions, main elements, international experience in this area and other issues.

**Redaksiyaya daxilolma tarixi: 22.01.2025**
**Təkrar işlənməyə göndərilmə tarixi: 29.01.2025**
**Çapa qəbul olunma tarixi: 30.01.2025**